# Yurdun qəhrəman övladları



**Kürdəmir Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Birinci Qarabağ müharibəsi və Vətən müharibəsi qaziləri ilə rayon gənclərinin görüşü keçirildi.**



2 Fevral - Azərbaycan Gəncləri Gününün təsis edilməsinin 25 illiyi münasibətilə "Gənclər həftəsi" çərçivəsində "Qalib ölkənin Qalib gəncləri" mövzusunda keçirilən görüşün əsas məqsədi gəncləri Vətənə məhəbbət ruhunda tərbiyə etmək, onlarda vətənpərvərlik, xalqa, torpağa bağlılıq hissini yüksəltmək, həmçinin Vətən müharibəsi qəhrəmanlarının və qazilərinin gənclər arasında tanıdılmasından ibarət idi.



**M.MİRZƏ,**
**"Respublika".**

Tədbirə torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərin iştirakçıları və qaziləri, Kürdəmir Rayon İcra Hakimiyyəti başçısı Aparatının Vətən Müharibəsi İştirakçıları və Şəhid Ailələri ilə işin təşkili şöbəsinin böyük məsləhətçisi Elşən İsmayılov, Kürdəmir Rayon Gənclər və İdman İdarəsinin rəisi Süleyman Əhmədov, idarənin kollektivi, rayonun fəal gəncləri dəvətli idi. Tədbirdən öncə gənclər Kürdəmir Şəhidlər xiyabanını ziyarət etdilər.

Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Tədbiri giriş sözü ilə açan rayon Gənclər və İdman İdarəsinin rəisi Süleyman Əhmədov bildirdi ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və komandanlığı altında, rəşadətli Ordumuzun qəhrəmanlığı sayəsində mənfur düşmən üzərində layiqli Qələbə qazanmağımız, 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımızın azad edilməsi insanların əzəli ata-baba torpaqlarına qayıtmasına imkan yaratdı. Bu böyük tarixi Qələbədə ölkəmizin vətənpərvər və qəhrəman gəncləri kimi Kürdəmir gəncləri də fəal iştirak etmişlər. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərin ailələrinin, o cümlədən müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsinə, onların problemlərinin vaxtında həllinə nail olunmasına xüsusi diqqət və qayğı göstərilir. Bu qayğı və diqqət Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir. Şəhid məzarları bizim müqəddəs and yerimiz, qazilər isə el-obada xüsusi hörmət, ehtiram sahibləridir.

Görüşdə çıxış edən müharibə iştirakçıları Kənan Zülfüqarov, Vüsal Mahmudov, Elnur Cəfərov və Araz Hüseynov müharibə ilə bağlı xatirələrindən və göstərdikləri igidliklərdən söz açdılar. Onlar qələbəyə xalqımızın birliyinin və həmrəyliyinin sayəsində nail olduğumuzu vurğulamaqla yanaşı, dövlətimizin şəhid ailələrinə və vətən uğrunda sağlamlığını itirmiş şəxslərə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə etdilər.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

Respublika.- 3 fevral.- 2022- ci il.- S. 10.